**HACILI ZİYA CAHANGİR OĞLU**
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun kiçik elmi işçisi*
*ziya_hacili@mail.ru*

# TOVUZÇAY HÖVZƏSİNİN SON TUNC-İLK DƏMİR DÖVRÜNƏ AİD TORPAQ QƏBİRLƏRİ

***(Tovuzçay və Qazqulu nekropollarının materialları əsasında)***

Açar sözlər: Tovuzçay, arxeoloji ekspedisiya, yaşayış yeri, son tunc-ilk dəmir dövrü
Ключевые слова: Товузчай, археологическая экспедиция, поселения, период поздней бронзы-раннего железа
Key words: Tovuzchay, archaeological expedition, settlement, late bronze and early iron period

Tovuzçay hövzəsinin son tunc-ilk dəmir dövrünə aid istər yaşayış yerləri, istərsə də qəbir abidələri geniş tədqiq olunmamışdır. Arxeoloji abidələri öyrənmək, onları siyahıya almaq məqsədilə kəşfiyyat işləri demək olar ki, aparılmamışdır. Hövzənin qəbir abidələri Tovuzçay, Qazqulu və qismən də Aşağı Mülkülü nekropollarının materialları əsasında tədqiq olunur və araşdırılır. Buna görə də hövzənin qədim sakinlərinin son tunc-ilk dəmir dövrünə aid təsərrüfat həyatı və məişəti, mənəvi aləmi ilə bağlı ətraflı məlumatlar məhz bu qəbir abidələrindən əldə edilmiş zəngin və maraqlı avadanlıq əsasında öyrənilir.

Lakin, qeyd olunan dövrdə adı çəkilən ərazidə yaşamış qədim qəbilə və tayfaların tarixini və ictimai quruluşunu öyrənmək üçün əsas mənbə rolunu daha çox daş örtüklü və torpaq qəbirlər oynayırlar. Hər iki tip qəbir abidələri Tovuzçay və Qazqulu nekropollarından, qismən də Aşağı Mülkülü nekropolunun qəbirlərindən məlumdur [1;2;3;4;5]. Bir sıra fərqli, lokal dəfn adətlərinə malik olan bu nekropolların qəbirləri Azərbaycanın digər həmdövr qəbir abidələrindən tipinə, quruluş və xarakterinə görə seçilsələr də arxeoloji materiallarının xüsusiyyətləri baxımından qətiyyən fərqlənmirlər.

Tovuzçay və Qazqulu nekropollarının digər qəbir abidələri torpaq qəbirlərdir ki, onlar da seyrək çay daşları qarışıq torpaqdan ibarət örtüyə malikdirlər [2;4;6,152-153]. Tovuzçay nekropolunda torpaq qəbirlərin sayı 53 ədəddir. Onlar say etibarilə daş örtüklü qəbirlərdən daha çoxdur. Quruluşuna görə bu qəbirlər sadə deyildir. Torpaq qəbirlərin də örtüyündə xırda çay daşlarına təsadüf olunur. Bu qəbirlər də eynilə daş örtüklü qəbirlər kimi nekropolun çınqıllı-xırlı torpağında qazılmış, lakin bəzilərinin üzəri narın qum və torpaqla örtülmüşdür [2;4]. Bəzilərinin üzərində isə örtük xarakterli tək-tək çay daşlarına rast gəlinir.

Qazqulu nekropolunda cəmi iki torpaq qəbir aşkar edilmişdir ki, onların da hər ikisi şimal-cənub istiqamətində salınmışdır. 6 və 17№-li torpaq qəbirlərin heç birindən skelet aşkar edilməmişdir [4,14,39]. Bu qəbirlərin hər ikisi torpaq qəbirlər olsa da sadə olmayıb üzərilərinə tək-tək iri ölçülü çay daşları qoyulmuşdu. Dairəvi formaya malik olub kiçik ölçüləri və zəif material bazası ilə seçilən bu qəbirlərin torpağı çox yumşaq olub nisbətən dayazda (75-90sm dərinlikdə) salınmışdır.

Aşağı Mülkülü nekropolunda aşkar edilən 3 ədəd yarıdağılmış vəziyytdə olan torpaq qəbirlər quruluşuna görə sadə olub, dəfn adəti baxımından əsaslı fərqə malik deyillər. Eyni zamanda bu qəbirlərdən Tovuzçay və Qazqulu nekropollarının qəbirləri üçün xarakterik qəbir avadanlığı tapılmışdır.

Tovuzçay və Qazqulu nekropollarının hər ikisində həm daş örtüklü, həm də torpaq qəbirlərə rast gəlinməsi çox böyük maraq doğurur. Bu qəbir tipləri arasında xronoloji dövr baxımından əsaslı fərq yoxdur. Bunu qəbirlərdən aşkar olunan arxeoloji materiallar da təsdiqləyir [2;4]. Digər tərəfdən burada daş örtüyün qurulması üçün lazım olan materialın (çay daşının) qıtlığından da söhbət gedə bilməz. Çünki, yaxınlıqdakı çay dərəsi bu tələbatı tam ödəmişdir. Kurqan örtüyünü xatırladan daş örtüklü qəbirlərin yalnız tayfanın imkanlı adamlarının şərəfinə qurulması faktı da özünü doğrultmur. Bəzi torpaq qəbirlərin daş örtüklü qəbirlərə nisbətdə zəngin avadanlığa malik olması bu fikrin doğruluğunu şübhə altına alır.

Tovuzçay nekropolundakı qəbirlərin üzərində daş örtüyün qurulması və bəzi qəbirlərə çay daşlarının qoyulması dəfn adətində daşa olan inamla bağlı olmuşdur [6,152-153]. Buradan belə nəticə hasil olur ki, Tovuzçay və eləcə də Qazqulu nekropllarındakı qəbir tipləri dəfn adətindəki müxtəlifliyin təzahürü kimi ortaya çıxır. Müqaisə üçün qeyd edək ki, Zəyəmçay nekropolunda tədqiq edilmiş

qəbirlərin 87-si daş örtüklü, qalan 43-ü isə torpaq qəbirlərdir [7]. Həsənsu nekropolunda da həm daş örtüklü, həm də torpaq qəbirlərə rast gəlinmişdir [6,152-153]. Şərqi Gürcüstanda son tunc-ilk dəmir dövrünə aid tədqiq edilmiş 40 nekropolda da həm daş qutu, həm də torpaq qəbirlərə rast gəlinmişdir [8,22-26]. Yuxarıda qeyd etdiyimiz kimi M.Tuşuşvilinin Madnisçal nekropolunun üstünə çay daşları tökülmüş torpaq qəbirləri isə Tovuzçay nekropolunun torpaq qəbirlərindən tamamilə fərqlənir [9,167-169]. Əslində Madnisçal nekropolunun bu qəbirləri daha çox Tovuzçay və Qazqulu nekropollarının daş örtüklü qəbirlərinə uyğun gəlirlər.

Araşdırmalardan da görünür ki, Tovuzçay və Qazqulu nekropollarında qazılıb tədqiq olunan qəbirlərin tiplərindən asılı olmayaraq onlarda icra olunmuş dəfn adətləti və qəbirlərdən tapılan avadanlıq fərqlənmir [2;4].

Beləliklə, qeyd etdiyimiz kimi, Xocalı-Gədəbəy mədəniyyətinə aid Tovuzçay hövzəsinin son tunc-ilk dəmir dövrü qəbir abidələri tiplərinə görə bir-birindən ayrılır və hövzənin təbii-coğrafi şəraitinə uyğun yerləşirlər. Burada daha bir amili yadda saxlamaq lazımdır ki, əkinçiliklə yanaşı maldarlıqla məşğul olan hövzə əhalisinin yaylaq-qışlaq mövsümü ilə bağlı köç prosesi də qəbir abidələrinin yerləşmə arealına təsir göstərməyə bilməzdi. Bu dövrdə yaylaq maldarlığı daha çox ön plana keçmiş və xırdabuynuzlu mal-qara başlıca var-dövlət mənbəyinə çevrilmişdir [10,59]. Tovuzçay hövzəsinin arxeoloji abidələri -daha çox qəbir abidələrinin yerləşməsi əsasında dağlıq, dağətəyi və düzənlik zonanın qəbir tiplərini müəyyən etmək heç də çətin deyildir. Arxeoloji tədqiqatlar da sübut etmişdir ki, bu hövzədə ən çox daş örtüklü və torpaq qəbirlər üstünlük təşkil edir. Burada daha bir faktı qeyd etmək lazımdır ki, yerləşməsindən və sayından asılı olmayaraq yuxarıda sadaladığımız qəbir tiplərinin qazıntısı heç də eyni vəziyyətdə olmamışdır.

Tovuzçay hövzəsində son tunc-ilk dəmir dövrünə aid qəbir abidələri içərisində daha yaxşı tədqiq olunan da elə daş örtüklü və torpaq qəbirlərdir [5,88-89]. Hövzənin indiki Ermənistan Respublikası ərazisinə düşən dağlıq və dağətəyi hissənin əksər yerlərində daş qutuların mövcudluğu təsdiq olunsa da onların qazıntısı hələlik həyata keçirilməmişdir. Hövzənin qəbir abidələri içərisində Tovuzçay və Qazqulu nekropolları kompleks şəkildə tədqiq olunmuş və 100-dən çox qəbir abidəsi öyrənilmişdir [2;4]. Son tunc-ilk dəmir dövrünün müxtəlif mərhələlərini əks etdirən bu qəbirlərin analoji oxşarları qonşu Zəyəmçay, Həsənsu, Axınca çayları hövzələrindən aşkar edilmişdir. Qeyd edək ki, Tovuzçay hövzəsinin dağlıq və dağətəyi zonalarında daş örtüklü qəbirlər, düzənlik zonalarında isə torpaq qəbirlər üstünlük təşkil edirlər. Amma, həm Tovuzçay, həm də Qazqulu nekropollarından aşkarlanan torpaq qəbirlər də quruluşuna görə sadə olmayıb, daş qarışıqlıdır [2;4]. Aşağı Mülkülü nekropolundakı qəbirlər isə sadə torpaq qəbirlər olub, heç bir daş qarışığına malik deyillər.

Çox ehtimal ki, Tovuz və Axınca çaylarının yuxarı axarı hövzəsində tək-tək rast gəlinən kurqanlar da daş örtüklü qəbirlərin üzərində ucaldılmışdır. Ümumiyyətlə, kurqan tipli qəbir abidələri Azərbaycanın qərb bölgələrinin dağətəyi və düzənlik sahələri üçün daha çox səciyyəvidir. Dağlıq sahədə onların sayı azdır.

Tovuzçay hövzəsinin qəbir abidələri yaşayış yerlərinin yaxınlıqlarında salınmışdır. Lakin, hövzənin son tunc-ilk dəmir dövrünə aid yaşayış yerləri çox zəif öyrənilmişdir. Tovuzçay və Qazqulu nekropollarının aid olduğu ehtimal edilən yaşayış yerlərində arxeoloji baxımdan irimiqyaslı arxeoloji qazıntıların aparılması və daha ətraflı öyrənilməsi son tunc-ilk dəmir dövründə Tovuzçay hövzəsində məskunlaşan Xocalı-Gədəbəy tayfalarının təsərrüfat fəaliyyəti, məskunlaşma arealı, iqtisadi-mədəni əlaqələri, mənəvi mədəniyyətləri haqqında əlavə məlumatların üzə çıxmasına şərait yaradacaqdır.

## ƏDƏBİYYAT:

1. Ağalarzadə A.M., Nəcəfov Ş.N., Danyalov Y.M. Tovuzçay nekropolunda maraqlı dəfn adəti //Elmi axtarışlar, XVII toplu, 2005
2. Müseyibli N.Ə., Ağayev Q.H., Aşurov S.H, Əliyev İ.N., Hüseynov M.M., Quliyev F.E., Nəcəfov Ş.N. BTC marşurutunun 378-ci km-də yerləşən Tovuzçay nekropolunun qazıntısının geniş elmi hesabatı. Azərbaycan-Bakı, 2008
3. Nəcəfov Ş.N., Əsədov V.A. Qazqulu nekropolunun qəbir abidələri və dəfn adətləri //Azərbaycan arxeologiyası və etnoqrafiyası, 2009, 2
4. Nəcəfov Ş.N. Tovuzçay su anbarının tikintisi ilə bağlı olaraq subasar ərazidə yerləşən Qazqulu nekropolunda 2008-ci ilin mayın 26-dan iyulun 27-dək aparılmış arxeoloji qazıntı işlərinin geniş elmi

hesabatı . Bakı, 2008
5. Даниелян О.А. Бронзовые кинжалы из памятников Ходжалы-Кедабекской культуры //МКА, 1987, т.X
6. Гусейнов М.М. О погребальных обрядах Товузчайского некрополя / Кавказ археологии и этнологии. Международная научная конференция 11-12 сентября, Азербайджан-2008, Шамкир. Материалы конференции. Баку, 2009
7. Nəcəfov Ş.N. Zəyəmçay hövzəsinin son tunc-ilk dəmir dövrü qəbir abidələri. t.e.n. alimlik dər. al. üçün təq. ed. diss. avtoreferatı. Bakı, 2008
8. Пицхелаури К.Н. Археологическая культура центральной части Южного Кавказа во второй половине II тыс.до н.э. (сущность, культуры, характерные признаки и ареал распространения), (резюме на русс. языке) Тбилиси, 2005
9. Техов Б.В. Центральный Кавказ в XVI-X вв. до н.э. М, 1977
10. Əliyev T.R. İbtidai cəmiyyətin dağılması gedişində Azərbaycanda demoqrafik dəyişikliklər //Azərbaycan arxeologiyası, 2006, № 1-4

**HACILI ZIYA CAHANGIR OGLY**
*the scientific worker of the*
*Institute of Archaeology and Etnoqraphy of NASA*
*ziya_hacili@mail.ru*

## THE LAND GRAVES OF THE TOVUZCHAI BASIN DURING THE LAST BRONZE AND EARLY IRON AGE PERIOD

During last year's considerable archaeological monuments have been investigated in the basin of the Tovuzchay. Tovuzchay and Gazigulu necropolises are especially noted in this article. A lot of considerable grave monuments have been revealed and interesting grave traditions are learnt during the investigation in the Necropolises. Grave types have been different, but they do not differ getting archaeological equipment absolutely. Land graves are different for their grave type. The systems of the land graves are not simple. There are different small river stones in the cover of the graves. The location of the graves is similar with stone graves. But in the cover of some land graves there are small stones too.

**ГАДЖЫЛЫ ЗИЯ ДЖАХАНГИР ОГЛЫ**
*младший научный сотрудник*
*Института Археологии и Этнографии НАНА*
*ziya_hacili@mail.ru*

## *ГРУНТОВЫЕ ПОГРЕБЕНИЯ ТОВУЗЧАЙСКОГО БАССЕЙНА ПЕРИОДА ПОЗДНЕЙ БРОНЗЫ-РАННЕГО ЖЕЛЕЗА*

Большинство погребений, обнаруженных в Товузчаских бассейне, было с каменным покрытием курганного типа. Вместе с этим обнаруживались и грунтовые погребения, но они малочисленны. По этим свойствам погребения Товузчайского и Газгулинского некрополя аналогичны с погребениями некрополей Гасансу, Гаджывелилер, в том числе Зеямчайских некрополей. Отметим, что несмотря на разнообразие могильных форм, их погребальный обряд и полученные материально-культурные образцы ни чем не различаются.

Принцип общей направленности в погребениях некрополя в некотором роде был соблюден. Так, среди погребальных камер больше всего встречаются погребения восточно-западной и западно-восточной направленности. В большинстве погребений были обнаружены человеческие скелеты. Скелеты в погребениях были полускорченными, уложенными на спину, полностю скорченными, в положении на правом или на левом боку, а иногда расчлененными. Отметим, что следы таких захоронений встречаются в большинстве могильных памятников Азербайджана периода поздней бронзы-раннего железа.

Tarix və onun problemləri, № 1 2012



*Tovuzçay nekropolu: 46, 47, 48 №-li qəbirlər*

*Rəyçilər: t.e.d. A.Məmmədov, t.e.d. Q.S.İsmayılzadə*
*AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun «Etnoarxeologiya» şöbəsinin 17 fevral 2012-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol № 01)*